







# “İlham Əliyev bizi yeni həyata qaytardı”

**Respublika Prezidenti İlham Əliyevin fəaliyyətində cəbhə bölgələrinə xüsusi qayğı və diqqət prioritet istiqamət olaraq qalmaqdadır. Düşmənlə təmas xəttinə yaxın ərazilərdə yaşayan əhalinin sosial problemlərini diqqət mərkəzində saxlamaq, onların həyat şəraitini yaxşılaşdırmaq, faydalı məşğulluğunu təmin etmək üçün dövlət səviyyəsində həyata keçirilən məqsədyönlü tədbirlər müsbət nəticələrini verməkdədir. Bu, bölgə əhalisinin yüksək əhvali-ruhiyyəsində başlıca stimuldur.**

## Qaçqın və məcburi köçkünlər, cəbhə bölgəsinin əhalisi Prezidentin qayğısını yüksək qiymətləndirirlər





Hökumətin xalq üçün çalışdığını yüksək dəyərləndirən, bərk ayaqda, çətin anlarda dövlət başçısını yanlarında görən cəbhə bölgəsində, atəşkəsin tez-tez pozulduğu, ölümsaçan güllələrin vıyıltı ilə ötüşdüyü ərazilərdə yaşayan əhalidə qələbənin tezliklə reallaşacağına, işğal altındakı torpaqlarımızın azad ediləcəyinə yenilməz, sarsılmaz inam vardır. Bu inam respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik siyasətdən, Qarabağ münaqişəsində bir qarış torpağın da güzəşt edilməyəcəyini, Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına imkan verilməyəcəyini bütün dünyaya cəsarətlə bəyan edən prinsipial mövqedən, yenilməz qətiyyətdən qaynaqlanır.

Cəbhə bölgələrinə davamlı dövlət qayğısının ürəkaçan nəticələri Füzuli rayonunda xüsusilə diqqət çəkir. Bölgəyə dəfələrlə səfər edən Prezident İlham Əliyevin təşəbbüsü, tapşırıq və tövsiyələri ilə bu rayonda möhtəşəm quruculuq işləri həyata keçirilmiş, Ermənistan silahlı qüvvələrinin viran qoyduğu Horadizin xarabalıqları üzərində Avropa şəhərləri ilə müqayisə ediləcək yeni, abad və gözəl bir şəhər salınmışdır. Bu gün Horadizin parlaq bir ulduza çevrildiyini könül xoşluğu ilə vurğulamaqla yanaşı, yaxın keçmişdə baş verənləri, keçdiyimiz ağrı-acılı, qanlı-qadalı, lakin qəhrəmanlıqlarla dolu şərəfli yolu da unutmamalıyıq. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Füzuli rayonunun 22 yaşayış məntəqəsi xalqın israrlı tələbi ilə yenicə hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyevin qətiyyəti, böyük sərkərdəlik məharəti nəticəsində düşməndən azad edildi. Horadizin və işğaldan azad olunmuş digər yaşayış məntəqələrinin bərpa edilməsi, bu ərazilərdə zəruri infrastruktur yaradılması üçün dövlət səviyyəsində start verildi. Ancaq siyasi böhrandan yenicə çıxan, xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrikliyi sayəsində məhv olmaq təhlükəsindən qurtulan dövlətin iqtisadi gücü böyük bir ərazidə kəndləri, şəhərləri yenidən qurmağa, iri sosial layihələri həyata keçirməyə, təbii ki, yetərli deyildi. Bəli, o dövrün real mənzərəsi beləydi: müharibəyə cəlb edilmiş, ərazilərinin xeyli hissəsi işğal olunmuş, iqtisadi cəhətdən zəif bir dövlət və cəbhə boyu yaşayış məntəqələri yerlə yeksan edilmiş ölkə vətəndaşları idik. Ulu öndər Heydər Əliyev böyük bir uzaqgörənliklə, qeyri-adi peşəkarlıqla dövləti iqtisadi böhrandan (“Əsrin müqaviləsi”ni imazalamaqla), xalqı ümidsizlikdən çıxarmağı bacardı...

Ən böyük hakim olan zaman isə öz axarındaydı. Ulu öndərin müəyyən etdiyi siyasi kursu, başladığı möhtəşəm quruculuq işlərini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev cəbhə bölgələrinə münasibətdə də varislik ənənəsinə sədaqət nümunəsi göstərdi. 2003-cü ildə prezident seçkiləri ərəfəsində “Azərbaycanda bir dənə da olsun çadır düşərgəsi qalmayacaqdır” deyən İlham Əliyev, əslində, doğma yurd-yuvasından perik salınmış qaçqın və məcburi köçkün soydaşlarımıza isti qucaq açdı. Dediyi sözə hər zaman sahib çıxan Prezident İlham Əliyevin sərəncamları ilə Füzuli rayonu ərazisində 2003-cü ildə 11 Qayıdış, 2007-ci ildə isə 5 Zobucuq qəsəbəsi salındı. Keçən il isə 400 evdən ibarət daha bir qəsəbə istifadəyə verildi. Prezident İlham Əliyev cəbhə bölgələrində həyat şəraitini yaxşılaşdırmaq, burada iri sosial layihələri həyata keçirmək üçün dövlətin imkanlarından istifadə etməklə yanaşı, beynəlxalq humanitar təşkilatları da bu işə cəlb etdi və fərəhli nəticələr qazanıldı. Füzuli rayonu ərazisində beynəlxalq və respublika təşkilatları tərəfindən bərpa olunmuş və yenidən tikilmiş evlər haqqında statistik məlumat qeyd etdiklərimizin məntiqi təsdiqidir. “Dövlətqaçqınkom” - 4696 ev, Füzuli Rayon İcra Hakimiyyəti - 238 ev, Respublika Bərpa Agentliyi - 1024 ev, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti - 496 ev, Beynəlxalq Xilasetmə Komitəsi - 1038 ev, Norveç Ali Komissarlığı - 274 ev, Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyəti - 318 ev. Təkcə Füzuli rayonu ərazisində bütövlükdə 8086 yeni ev tikilməsi, yaxud yararsız vəziyyətdə olan evlərin bərpa edilməsi bölgə əhalisində hədsiz minnətdarlıq doğurdu, razılıqla qarşılandı.

Respublika Prezidenti İlham Əliyevin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan tədbirlər Füzulidə uğurla





həyata keçirilir. Bölgə əhalisinin sağlamlığına dövlət qayğısının göstəricisidir ki, hələ 10 il əvvəl Horadizdə müasir tələblərə cavab verən və zəruri avadanlıqlarla təchiz edilən Müalicə-Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Horadiz Olimpiya İdman Kompleksi bölgədə gənc və yeniyetmələrin sağlam böyüməsinə, idmanın kütləviliyinin təmin olunmasına dövlətin verdiyi töhfədir. Horadizdə möhtəşəm Muğam Mərkəzinin tikilib istifadəyə verilməsi musiqi beşiyi olan Qarabağda milli-mənəvi dəyərlərimizə dövlət səviyyəsində verilən böyük önəmin parlaq ifadəsidir.

Qarabağı, cəbhə bölgələrini daim diqqətdə saxlayan Prezident İlham Əliyevin Füzuli rayonuna çoxsaylı səfərləri olmuşdur. Təbii ki, dövlət başçısının hər səfəri rayonun sosial-iqtisadi inkişafına güclü təkan vermiş, bölgədə döyüş ruhunu, qələbə əzmini artırmış, hakimiyyət-xalq birliyinin sarsılmaz təntənəsinə çevrilmişdir. Dövlət başçısının hər səfəri rayonda yeni-yeni ünvanların yaranması, sosial obyektlərin, istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması ilə tarixə çevrilmişdir. Bu səfərlərin yaratdığı xoş təəssürat Füzuli camaatının yaddaşından silinmir, söhbətlərin əsas mövzusuna çevrilir. 2012-ci ilin 15 dekabrı füzulililər üçün unudulmaz tarixlərdəndir. Həmin gün rayona səfər edən Prezident İlham Əliyev Horadiz şəhər Mədəniyyət evinin, Dram Teatrının, Şahmat məktəbinin, Heydər Əliyev Mərkəzinin, Gənclər Mərkəzinin, 2 nömrəli tam orta məktəb binasının, YAP rayon təşkilatının inzibati binasının, Heydər Əliyev parkının, Horadiz dəmir yolu vağzalının, soyuducu anbar kompleksinin, su elektrik stansiyasının açılış mərasimlərində iştirak etmişdir.

Dövlət başçısının 2014-cü ilin 28 avqustuna təsadüf edən növbəti səfəri də əlamətdar hadisələrlə zəngin olmuşdur. Bu səfər çərçivəsində Horadiz şəhərinin ən yüksək nöqtəsindəki 10 hektar ərazidə salınmış Bayraq meydanının, Boulinq zalının, Horadiz şəhərində tikiş fabrikinin, Füzuli Rayon İcra Hakimiyyətinin inzibati binasının, uşaq bağçasının, tarix-diyarşünaslıq muzeyinin, Horadiz şəhərində işğal zamanı yandırılmış və dağıdılmış 227 fərdi evin və kommunal binanın, Qəhrəmanlar parkının, Əhmədalılar-Mollaməhərrəmli-Arayatlı-Babı kəndləri arası avtomobil yolunun açılışında iştirak edən Prezident görülən quruculuq işlərini yüksək qiymətləndirərək Horadizi cənnətə bənzətmiş, Ermənistanın paytaxtı ilə müqayisə etmişdir.

Dövlətin qayğısından, Prezident İlham Əliyevin isti münasibətindən güc alan füzulililər doğma yurdun hər qarışını abadlaşdırmaq, cənnətə döndərmək üçün ürəklərinin odunu, əllərinin hərarətini əsirgəmirlər. Vətən məhəbbəti, fəal vətəndaş mövqeyi bu gün Horadizi, sözün həqiqi mənasında, cənnətə döndərmişdir. Qışın bu vədəsində Horadizdə bahar nəfəsi duyulur. Hər addımda yaşıllıqlar, al-əlvan gül-çiçəklər göz oxşayır. Horadizdə işğal dövrü yandırılmış və dağıdılmış 5 küçə tamamilə yenidən qurulmuşdur. Şəhərdə yüksək zövqlə yeni park və xiyabanlar salınmışdır. Rayon ərazisində 20000-dən çox çinar, Türkiyə və İtaliyadan gətirilmiş 3500 liandra, 10000 Eldar şamı, 25000 dekorativ kol, bütövlükdə 100 minə yaxın müxtəlif növ ağac və dekorativ kol əkilmişdir.









Dövlət başçısının qayğısı sayəsində rayonda yol infrastrukturu sürətlə yaxşılaşır. Prezidentin imzaladığı sərəncam əsasında 25 min nəfər əhalinin yaşadığı 8 kəndi birləşdirən 31.7 kilometrlik Əhmədbəyli-Alxanlı-Zobucuq, həmçinin Bala Bəhmənli-Araz Dilağarda-Araz Zərgər avtomobil yolları əsaslı şəkildə yenidən qurulmuşdur. Rayon ərazisində 60 kilometrə yaxın yol bərpa olunmuş, Birinci və Onbirinci Qayıdış qəsəbələrini birləşdirən 23 kilometr uzunluğunda yeni yol çəkilmişdir.

Respublikanın bütün bölgələrində olduğu kimi, Füzuli rayonunda da Heydər Əliyev Fondunun, fondun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğı və diqqəti minnətdarlıq doğurur, razılıqla qarşılanır. Horadiz şəhərində Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inşa olunmuş 240 şagird yerlik ikimərtəbəli, müasir avadanlıqlarla təchiz olunmuş məktəb binası füzulililərə Heydər Əliyev Fondunun qiymətli hədiyyəsidir. Horadiz şəhərində 100, Bala Bəhmənli kəndində 60 yerlik uşaq bağçaları da cəbhə bölgəsində yaşayan əhaliyə Heydər Əliyev Fondu tərəfindən göstərilən davamlı qayğının ifadəsidir. Öz tarixi keçmişləri ilə fəxr edən füzulililər rayonda tarix-diyarşünaslıq muzeyinin olmamasından nigaran idilər. Bu məqsədlə ayrı-ayrı təşkilatlara edilən müraciətlər də nəticəsiz qalırdı. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Füzuli sakinlərinin bu istəyi də gerçəkləşdi. Horadiz şəhərində tarix-diyarşünaslıq muzeyi tikilib istifadəyə verildi. Heydər Əliyev Fondunun Füzuli camaatına qayğısı yalnız bunlarla məhdudlaşmır. Fond rayonun işğaldan azad olunmuş ərazilərində onlarla layihə həyata keçirmiş, minlərlə füzulili məcburi köçkünü sevindirmişdir.

Ürəyi qurub-yaratmaq eşqiylə çırpınan füzulililərin hər günü fədakarlıq nümunəsi, qəhrəmanlıq tarixidir. Yurd sevgisi, vətən məhəbbəti, fəal vətəndaş mövqeyi dövlət qayğısı ilə birləşəndə xariqələr yaratmaq çox asan olur. Dövlət iqtisadi imkanlarını, davamlı qayğı və diqqətini bu cəbhə bölgəsindən əsirgəmir. Bunu yüksək dəyərləndirən bölgə sakinləri isə dövlətin iqtisadi qüdrətini artırmağa sanballı töhfələrini verir, halal zəhmətləri ilə bolluq və firavanlıq yaradırlar. Bölgəyə səfəri zamanı “Azərxalça” ASC-nin ilk filialının açılışında iştirak edən Prezident İlham Əliyev Qarabağ xalçaçılarına xeyir-dua verdi, uğurlar arzuladı. İndi Horadiz filialında Qarabağın tarixi çeşniləri ilə toxunan xalçalar “Made in Azerbaijan” brendi ilə dünyanın müxtəlif ölkələrinə ixrac olunur. Rayonda sahibkarlığın inkişafına yaradılan şəraitin nəticəsidir ki, çox sayda iş adamı rayon iqtisadiyyatının möhkəmlənməsində fəal iştirak edir. Horadiz şəhərində 10 hektar ərazidə istixana kompleksi, Zobucuq qəsəbəsində kənd təsərrüfatı məhsullarının satış-yarmarkası və digər obyektlər yeni yaradılmışdır. Bu ilin 10 ayı ərzində iş adamları tərəfindən Füzuli rayonuna 10 milyon manatdan artıq investisiya qoyulmuşdur.

Ərazisinin təxminən yarısı Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Füzuli rayonu üzləşdiyi çətinliklərə, problemlərə baxmayaraq, ölkədə ərzaq bolluğu yaradılmasının fəal iştirakçısı olaraq qalır. Bu il rayonun təsərrüfatlarında 103 min tondan çox taxıl istehsal edilmişdir. Dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı təsdiq etdiyi Strateji Yol Xəritəsinə uyğun olaraq rayonda hər biri 1000 hektar əraziyə malik 4 iri taxılçılıq təsərrüfatı, 500 hektar ərazidə isə toxumçuluq təsərrüfatı yaradılmışdır.

Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə bağlı müəyyən etdiyi istiqamətə uyğun olaraq rayon ərazisində 2700 hektarlıq sahədə müxtəlif kənd təsərrüfatı məhsulları istehsal edəcək aqropark yaradılmışdır. Füzuli kəndlisi pambıqçılıq, baramaçılıq sahəsində də yaxşı nəticələr qazanır. Bu il rayonda 2200 ton pambıq istehsal edilmişdir. Kümçülərin uğuru daha böyükdür. Cari ildə 25 ton barama tədarük olunmuşdur ki, bu da keçən ildəkindən 8 dəfə çoxdur. Füzuli respublikanın ən çox barama istehsal edən rayonları sırasında ikincidir. Tərəvəz, bostan məhsulları, kartof, meyvə, ət, süd, yumurta istehsalında da proqnoz tapşırıqları artıqlaması ilə yerinə yetirilmişdir.

Rayonda həyatın bütün sahələrində qazanılan uğurların, əldə edilən nailiyyətlərin əsasında dövlətimizin, ordumuzun qüdrətinə, Prezident İlham Əliyevin müdrik siyasətinə yenilməz inam dayanır. Bu inam hər gün daha da artır, güclənir. Bu gün dövlət başçısının qayğı və diqqətindən bəhrələnən, göz oxşayan, yaraşıqlı Horadiz düşmənə göz dağı, Azərbaycanın isə qürur ünvanıdır. Müharibənin xarabalıqları üzərində salınmış Horadizin cənnətmisal möhtəşəm görüntüsü bu yurdun hər qarış torpağını sonsuz məhəbbətlə sevməyin, vətənə layiqli övlad olmağın gerçək nümunəsidir.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***